




# Media Və İnsan Alverinə Dair Təlimatlar

Bu layihə Avropa İttifaqının maliyyə dəstəyi ilə Ekspertiz Frans (EF) və İspaniyanın İnzibati və İctimai Siyasət üzrə Beynəlxalq Fondu (FİİAPP) ilə birgə tərəfdaşlıq çərçivəsində Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəzin (MSHBM) rəhbərliyi altında beynəlxalq konsorsium tərəfindən həyata keçirilir.

Bu vəsait Avropa Komissiyasının maliyyə dəstəyi və Ekspertiz Frans (EF) və İspaniyanın İnzibati və İctimai Siyasət üzrə Beynəlxalq Fondu (FİİAPP) ilə birgə əməkdaşlıq çərçivəsində Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz (MSHBM) tərəfindən həyata keçirilən İnsan Alveri və Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə – Faza 2 (THB/IFS/2) Layihəsi çərçivəsində hazırlanmışdır. Vəsait Avropa İttifaqının dəstəyi ilə hazırlanıb.

Müəllif: Aidan White, Etik Jurnalistika Şəbəkəsi

EJN Ethical Journalism Network

MSHBM-in işçi heyəti: Madis Vainomaa, Ivanka Georgieva,
Edgar Federzoni dos Santos, William Huddleston

ICMPD International Centre for Migration Policy Development

**Müəllif hüquqları:**

Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz (MSHBM), 2017

İstifadə olunan şəkillərin müəllif hüququ müəllif hüququ sahibləri tərəfindən qorunur və Creativ Commons lisenziyasının şərtlərinə uyğun istifadə olunub.

Bütün hüquqlar qorunur. Bu vəsaitin heç bir hissəsi müəllif hüququ sahiblərinin icazəsi olmadan istər elektron, istərsə də mexaniki qaydada yenidən çap edilə, surəti çıxarıla və yaxud surətçıxarma, yazma şəklində, digər informasiya saxlama və axtarış sistemlərində saxlanıla və ötürülə bilməz.

**Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz (MSHBM)**
Gonzagagasse 1, 5-ci mərtəbə
Vyana, Avstriya
A-1010
www.icmpd.org

Bu vəsaitin məzmununa görə Aidan White, Etik Jurnalistika Şəbəkəsi və MSHBM bütün məsuliyyəti daşıyır.

Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz, 2017

Marc Rechdane tərəfindən tərtib olunmuşdur.

Üz qabığı şəkilləri Flickr CC-in razılığı ilə istifadə edilmişdir: Peter Haden (2014), ABŞ Kənd Təsərrüfatı Departamenti (2013), Rob Waddington (2014), Esther Vargas (2012)

# Mündəricat

01. Giriş 05
02. Əsasların başa düşülməsi 07
03. Xəbər redaksiyası strategiyaları 13
04. Qabaqcıl təcrübə 15
05. Linklər və əlaqə məlumatları 23

# 01. Giriş

İnsan alveri haqqında yazı jurnalistlər və redaktorlar üçün çağırış doğuran, kompleks və etik qaydalara dəqiq riayət olunmasını tələb edən tapşırıqlardan biridir. Bu yazıda son dərəcə sarsıdıcı rəqəmlər gözə çarpır. İnsan alveri qurbanları planetin ən həssas əhali təbəqələrindən olan şəxslərdirlər: köləlik vəziyyətində yaşayan 40 milyon nəfər; və ya uşaq əməyinə cəlb edilmiş 150 milyon uşaq; və ya həmçinin təxminən 150 milyon nəfər əmək miqrantı.

Dəqiq sayı heç kəsə məlum olmayan milyonlarla bu cür insan insan alverinin qurbanına çevrilir və bu şəxslərin başına gələnlər barədə məlumatların çatdırılması xüsusi qayğı və həssaslıq tələb edir. Xüsusilə də nəzərə almaq lazımdır ki, jurnalistlərin reportaj hazırlayarkən işlətdikləri dil, izah və kontekst zərərə səbəb ola bilər. Bu nifrət doğura, stereotipləri daha da möhkəmləndirə bilər. Cəhalət və anlaşılmazlıq yarada, diqqəti əsas səbəblərdən yayındıra və böhranın həlli üçün olduqca zəruri ictimai müzakirələrin aparılmasına əngəl törədə bilər.



Flickr CC-nin razılığı ilə istifadə edilmişdir.
Esther Vargas (2012)



Flickr CC-nin razılığı ilə istifadə edilmişdir. ABŞ Kənd Təsərrüfatı Departamenti (2013)

Bu təlimatların məqsədi redaktorlar və müxbirlərə məsələləri daha yaxşı başa düşməyə, xəbərlərin çatdırılması zamanı sərt və rəqabət mühitinin olduğu media məkanında gizli təhlükələrdən yayınmaqda onlara kömək etməkdir.

Xəbərləri dərc etməyə tələskənlik, çaşdırıcı və etibar olunmayan sosial media şərtləri, artan təbliğat və siyası təsirlər jurnalistikanın sensasiyalı xəbər başlıqları və günün kadrları içərisində ilişib qalmasına daha çox zəmin yaradır.

Köləlik və məcburi əməklə sıx bağlı olan insan alveri mürəkkəb sosial problem olmaqla məzmunun çatdırılması, qurbanların səslərinin eşidilməsi və həll yollarının tapılmasında qurbanlara kömək məqsədilə jurnalistikanın dolğun, məlumatlı və hər şeydən öncə insanpərvər olmasını tələb edir.

Media və jurnalistika dünya ictimaiyyətini inandıra bilər ki, insan alveri tamamilə aradan qaldırılmasa da, azaldıla bilər. Siyasi liderlər və əsasən ictimaiyyət dərc olunan yazıları tam şəkildə oxumalı, eşitməli və görməlidir. Bu, insan alveri probleminin fundamental səbəblərinin aradan qaldırılması üçün zəruri olan siyasi iradənin yaranmasında əsas ilkin addımdır.

Bu səhifələrdə əks olunan məsləhət və təkliflər jurnalistləri insan alveri haqqında reportaj hazırlayarkən bir daha düşünməyə; hüquqi və insan haqları kontekstini, qurbanlara qarşı rəftar, onların özəl həyatı və rifah məsələlərini nəzərə almağa; oxucularda görüləcək tədbirlərlə bağlı aydın təsəvvür yaratmaqla bərabər məzmunun insanpərvər ruhda çatıdırlmasına kömək edəcəkdir.

# 02.
# Əsasların başa düşülməsi

Etibarlı jurnalistika müxbir və redaktorların haqqında danışdıqları məlumatları anlamalarını şərtləndirir. İnsan alveri mövzusunun müzakirəsi zamanı istifadə etdiyimiz söz və terminlərin böyük bir qismi aydın hüquqi anlayışa malikdir. Jurnalistlər həmin söz və ifadələri ehtiyatla və dəqiqliklə istifadə etməlidirlər.

**İnsan alveri** insanları mənfəətə görə istismar edir və onların haqlarını pozur. İnsan alverçiləri insanları fərd kimi hədəfləyirlər. Onlar, adətən, məcburi əmək, məişət qulluğu, cinsi istismar, köləlik, orqanların satışını təşkil edən kriminal şəbəkələrə aid olurlar. İnsanlar mənşə ölkələrindən səyahət etmək üçün yol sənədlərinə və ya təyinat ölkəsində iş icazəsi və ya yaşayış icazəsinə malik olmadıqda insan alverinə məruz qalma təhlükəsi ilə üzləşirlər.

*İnsan alverinin əsas əlamətləri:*

- Bu insanlara qarşı cinayətdir.
- Razılaşdırılmadan və cəlb olunan şəxsin təsdiqlənmiş razılığı olmadan baş verir.
- Uzun müddətli, istismar xarakterli münasibətləri əks etdirir.
- İstismardan mənfəət güdür.
- Ölkə daxili və ölkə hüdudlarından kənarda baş verir.



Flickr CC-nin razılığı ilə istifadə edilmişdir. Rob O'Brien (2012)

İnsan alveri ilə bağlı əsas beynəlxalq və hüquqi alətlərə BMT-nin «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı» Konvensiyası (2000-ci il) və Konvensiyaya dair protokollar, xüsusilə də "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" protokol (Palermo protokolu kimi tanınır), "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyası (2005-ci il); eləcə də, İnsan alverinin qarşısının alınması və insan alveri qurbanlarının müdafiəsi haqqında 2011/36 saylı Aİ direktivi (2011-ci il) aiddir.

**Miqrantların qaçaqmalçılığı** maddi mənfəət əldə etmək məqsədilə bir ölkədən digər ölkəyə hərəkəti tənzimləyən rəsmi prosedurlara məhəl qoymadan şəxslərin qeyri-qanuni səfərlərinin təşkilinə kömək edilməsidir. Bu şəxsə qarşı deyil, yerli qanunlara qarşı cinayətdir. Bir çox hallarda, insan qaçaqmalçıları miqrantların hüquqlarını poza bilərlər, lakin onların rolu əsas etibarilə, miqrantlara və ya qaçqınlara qanuni və ya mütəşəkkil miqrasiyanın təmin edə bilmədiyi xidmətlərin göstərilməsidir.

Birləşmiş Millətlər Təşkilatı qaçaqmalçılıq *anlayışını* aşağıdakı kimi tərif edir: *birbaşa və ya dolayısı ilə hər-hansı maliyyə və ya digər maddi mənfəət əldə etmək məqsədilə ölkəyə həmin ölkənin vətəndaşı olmayan və ya daimi olaraq həmin ölkədə yaşamayan şəxslərin qeyri-qanuni yolla istənilən digər dövlətlərdən gətirilməsi.*[1]

1 Aşağıdakı linkə baxın https://www.unodc.org/documents/southeastasiaandpacific/2011/04/som-indonesia/convention_smug_eng.pdf

*Miqrant qaçaqmalçılığının əlamətləri:*

- Bu dövlətə qarşı cinayətdir.
- Cəlb edilən şəxsin razılığı olur.
- Adətən birdəfəlik, kommersiya maraqları çərçivəsində həyata keçirilir.
- Qanunsuz miqrasiyanın asanlaşdırılması üçün ödəniş olunur.
- Ölkə hüdudlarından kənarda baş verir.

**Milli İstiqamətləndirmə Mexanizmi**-dövlət orqanlarının və vətəndaş cəmiyyəti institutlarının insan alveri və ya köləlik qurbanlarının müəyyənləşdirilməsi və onlara dəstək göstərilməsini təmin edən əməkdaşlıq strukturudur. Belə mexanizmlər milli idarə və ya mandatlı dövlət qurumları və vətəndaş cəmiyyəti institutları arasında faktiki əməkdaşlıq təcrübələri formasında mövcud olur. Bunlar Avropa Şurasının İnsan Alverinə qarşı Konvensiyasına uyğun olaraq təsis edilir. Hər bir ölkənin istiqamətləndirmə mexanizminin əsasını potensial qurbanların aşkarlanması və müəyyənləşdirilməsi təşkil edir.

**Transmilli İstiqamətləndirmə Mexanizmi** müəyyənləşdirilmiş və ya potensial insan alveri qurbanlarına sərhədlərarası kompleks yardımın göstərilməsi və/və ya həmin şəxslərin ölkələrinə geri qaytarılması üzrə əməkdaşlıq barədə razılaşmadır. Bu, ilkin yoxlama, qurbanların rəsmi qaydada müəyyənləşdirilməsi və yardım, könüllü qayıdışa dəstək, sosial inkluzivlik, mülki və cinayət araşdırmaları daxil olmaqla istiqamətləndirmə prosesinin bütün mərhələlərini əhatə edir.



Flickr CC-nin razılığı ilə istifadə edilmişdir. Rob Waddington, 2014

Bu, yardım göstərilən insan alveri qurbanlarının olduğu mənşə, tranzit və təyinat ölkələrinin hökumət qurumları, qurumlararası agentliklər və qeyri-hökumət təşkilatlarının insan hüquqlarına riayət edilməsinin təşviqi və qorunması sahəsində öz öhdəliklərinin yerinə yetirilməsini təmin edən əməkdaşlığına  əsaslanır.

**Sənədsiz və ya tənzimlənməyən miqrantlara** bir çox hallarda səhvən “qanunsuz” olaraq istinad edilir. Bu qərəzli anlayışdır, çünki qanunsuz miqrasiya o halda baş verir ki, insanlar bilərəkdən qanunsuz miqrasiya etməklə qanunları pozurlar. “Qaydasız” və “sənədsiz” terminlərinin istifadəsi tövsiyə olunur, lakin bu anlayışlar insan alveri və insan qaçaqmalçılığının qanunsuz olduğunu gizlətməməlidirlər. Qaydasız miqrantlar insan alverinə məruz qalmaya bilər, lakin, xüsusilə də, insan alverçilərinin köməyindən istifadə edərkən istismar və insan hüquqlarının pozulması riski ilə üzləşirlər. Təyinat ölkəsində qaydasız immiqrant statusu, qorxu içində olan fərdlərin məcburi əmək və köləliyi təşkil edən qruplar tərəfindən istismarına imkan yarada bilər.

**Köləlik** və ya **Müasir Köləlik** müxtəlif məcburetmə formaları və istismarın olduğu hədə-qorxu, zorakılıq, aldatma və/və ya təsir imkanlarından sui-istifadə nəticəsində şəxsin imtina və ya tərk edə bilmədiyi vəziyyətdir.  Köləlik, xüsusilə beynəlxalq insan hüquqları qanunvericiliyində qadağan edilmişdir.  Bu eləcə də, məcburi nikah, icbari əmək və insan alveri kimi digər problemləri əhatə edir. Beynəlxalq təşkilatlar tərəfindən köləliyin miqyası məcburi əməyə cəlb edilmiş və ya məcburi nikahda yaşayan şəxslərin sayı ilə ölçülür.

**Cinsi istismar məqsədilə insan alveri** şəxsin zor tətbiq etməklə, dələduzluq, hədə-qorxu və ya məcburiyyət yolu ilə fahişəlik kimi kommersiya məqsədli cinsi xarakterli  fəaliyyətlərdə  iştirakıdır.

**Cinsi istismar məqsədilə uşaq alveri** cinsi istismar məqsədilə böyüklərin alverindən o cəhətlə fərqlənir ki, azyaşlıların cinsi xarakterli fəaliyyətlərin satışına razılığının əldə olunması qeyri-mümkündür. Uşaq fahişəliyi uşaqların kommersiya məqsədilə cinsi istismarını təsvir edən tez-tez işlənən senzuralı termindir. Uşaq fahişəliyi kriminal şəbəkələr tərəfindən istifadə edilən mütəşəkkil cinayətkarlıq forması olmaqla bərabər, bir çox hallarda insan alverçiləri tərəfindən dəstəklənir.

**Məcburi nikah** qız və ya qadının, bəzi hallarda kişi və ya oğlanın öz iradəsinə qarşı nikaha məcbur edilməsidir. Qız öz ailəsi tərəfindən ailə borcunun ödənilməsi və ya qızın "namusunun" qorunması üçün satıla bilər.

**Məişət qulluğu** şəxslərin qulluğa götürülmüş evi tərk etməyə icazəsi olmaması, aşağı ödəniş alması və ya ümumiyyətlə ödəniş almaması və bir çox hallarda zorakılığa məruz qalmasıdır.

***Yadda saxlayın:*** *Köləlik bəşəriyyət tarixinin sadəcə maraqlı və rüsvayla dolu hissəsi deyil. Beynəlxalq Əmək Təşkilatının 2016-cı il üzrə hesablamalarına əsasən qlobal olaraq 40.3 milyon kişi, qadın və uşaq müasir dövrün köləlik qurbanı olmuşlar. Bu şəxslərdən 25 milyon nəfəri məcburi əməyə cəlb edilmiş və digər 15 milyon nəfəri isə məcburi nikahda yaşayırlar.[2] Və bu problem günümüzün xəbərlərində də öz əksini tapır.[3]*

**Məcburi əmək** BƏT-in beynəlxalq konvensiyasına əsasən şəxsin zorakılıq, hədə-qorxu və ya yığılmış borcun geri qaytarılması, şəxsiyyəti təsdiq edən sənədlərin saxlanması və ya miqrasiya orqanlarına ifşa edilməsi kimi üsullarla müəyyən işin yerinə yetirilməsinə məcbur edilməsi kimi müəyyən edilir. Köləlik və ya insan alveri qurbanları bir çox hallarda məcburi əməyə də cəlb olunurlar.

**Borc əsarəti** borcun göstərilən xidmət əvəzində geri ödənilməsini tələb edən, lakin zamanla artan və ödənilməsi qeyri-mümkün olan şəraiti yaratmaqla şəxsin kölelikdə saxlanılmasıdır;

**Müqavilə köləliyi** zamanı işçi saxta əmək müqaviləsi yolu ilə aldadılaraq kölə vəziyyətinə salınır. İnsanlar iş imkanları ilə şirnikləndirilir, lakin iş yerinə gəldikdən sonra ödənişsiz əsaslarla işləməyə məcbur edilir və düşdükləri vəziyyətdən qaçıb canlarını qurtara bilmirlər.

**Uşaq əməyi** beynəlxalq hüquqla müəyyən edilir. İqtisadi istismarın mövcud olduğu, uşaqların sağlamlığına və təhlükəsizliyinə zərərli olan, fiziki, psixoloji, əqli, mənəvi və ya sosial inkişafına mane ola bilən işləri nəzərdə tutur. Yadda saxlayın ki, uşağın cəlb olunduğu işlər o halda uşaq əməyi hesab olunur ki, onun rifahını təhlükə qarşısında qoysun, sağlam uşaqlıq dövründən və ya təhsil almaq hüququndan məhrum etsin. Bütün bu sadalananlar bir-

2 Aşağıdakı linkə baxın http://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/documents/publication/wcms_575540.pdf

3 Aşağıdakı linkə baxın: https://www.nytimes.com/2017/11/19/world/africa/libya-migrants-slavery.html

mənalı olaraq uşaq hüquqlarının pozulması deməkdir.

**Uşaq əməyinin ən pis formaları** uşaqların məcburi əmək şəraitində saxlanılması, fahişəliyə və pornoqrafiyaya və ya qanunsuz əməllərin icrasına cəlb edilməsidir. Uşaq əməyi ilə əlaqəli əsas beynəlxalq və hüquqi alətlər Beynəlxalq Əmək Təşkilatının Konvensiyaları və Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyasıdır.[45] Buna əlavə olaraq, uşaq alveri xüsusilə də Birləşmiş Millətlər Təşkilatının 18 yaşınadək olan şəxslərə şamil edilən İnsan Alverinə dair Protokolunda əks olunub.[6]

***Qlobal hədəf:** Uşaq əməyi, məcburi əmək, müasir quldarlıq və insan alverinin ləğvi Birləşmiş Millətlər Təşkilatının 2015-ci ildə qəbul olunan qlobal inkişaf strategiyasında əks olunub. Dayanıqlı İnkişaf Məqsədləri, xüsusilə də 8.7-ci hədəf 2025-ci ilədək uşaq əməyinin ən pis formalarının ləğvini qarşıya məqsəd qoyan öhdəliyi nəzərdə tutur. Bu çox nikbin bir hədəfdir.*

4 http://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/CRC.aspx

5 Aşağıdakı linkə baxın http://www.ilo.org/global/standards/subjects-covered-by-international-labour-standards/child-labour/lang--en/index.htm

6 Aşağıdakı linkə baxın http://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/ProtocolTraffickingInPersons.aspx

# 03.
# Xəbər redaksiyası strategiyaları

İnsan alveri mediada elə işıqlandırılmalıdır ki, bütün aspektlərdə hadisələrin gedişi, riqqət və peşəkarlıq ifadə edilsin.  Xüsusilə də, xəbər redaksiyası aşağıdakıları təmin etməlidir:

İnsan alveri sahəsində dövlət siyasətinin **başa düşülməsi**. Bir sıra sosial, iqtisadi və siyasi problemlər insanların insan alveri və istismara məruz qalma ehtimalını artırır. Bura eləcə də miqrasiya qaydaları, yoxsulluq, irqi və cinsi ayrı-seçkiliyi, dövlət rüşvətxorluğu, qeyri-adekvat qanunlar və qanunların zəif tətbiqi daxildir. Jurnalistlər bu hallardan xəbərdar olmalıdırlar.

Beynəlxalq standartlarda insan hüquqları, beynəlxalq hüquqda təhlükəsiz və etibarlı səyahət qaydaları, eləcə də təyinat ölkələrində  yaşayış hüquqları və əmək bazarına çıxış hüquqları ilə bağlı dövlət siyasətini **diqqətlə oxuyun**.



Flickr CC-nin razılığı ilə istifadə edilmişdir.
Steve Bustin (2014)

Həm təyinat, həm də mənşə ölkəsində insan alverinin müəyyənləşdirilməsi üçün sistemlərin, insan alverinin (uşaq və böyüklər) qurbanlarının müdafiəsi və reabilitasiyası üçün milli səviyyədə qanunların mövcud olub-olmadığını **araşdırın**;

İnsan alveri, məcburi əmək, müasir köləlik və uşaq hüquqlarının pozulmasına qarşı mübarizə aparan şəxslərlə yaxşı iş münasibətləri **qurun**.[7] Çox vaxt jurnalistlər və vəkillik qrupları arasında əlaqəsizlik olur.

Bəzi şəxslər insan alveri və ya məcburi əməyin ictimaiyyətə məlum olmayan tükürpərdici faktlarını açıqlamaq istəmirlər (məsələn, jurnalistlərə qurbanlarla müsa-

7 Təlimatların linklər və əlaqə bölməsinə baxın

hibə aparmağa imkan verməməklə). Yaxşı münasibətlər jurnalistlərin yazının düzgün formalaşdırılması üçün zəruri hesab olunan etibarlı tədqiqat və məlumatlara çıxışının olmaması səbəbindən yaranan problemin həllinə kömək edir.

---

***İnamın yaradılması:*** *Media və QHT-lər redaksiya müstəqilliyinə xələl gətirmədən və ya yardım layihələrinin bütövlüyü və ya insan alveri qurbanlarının ləyaqətini təhlükə qarşısında qoymadan əməkdaşlıq edə bilərlər.*

---

Daxili potensialın **yaradılması**. İnsan alveri ilə bağlı məlumatların diqqətlə araşdırılması və tədqiqat məqsədilə müxbirlərin kifayət qədər vaxta malik olmasının təmin olunması. İnsan alveri məsələlərinə dair xəbər otağı brifinqlərinin təşkili. İnsan alveri, miqrasiya və müasir köləlik məsələlərinə dair şikayətlər daxil olmaqla auditoriya məlumatlarını aydınlatmaq üçün qaynar xətt və sistemlərin yaradılması;

Dövlət qurumları və beynəlxalq agentliklərlə sıx əməkdaşlıq qurmaqla insan alveri, məcburi əmək və qaydasız miqrasiya, xüsusilə də insan alveri qurbanlarının sayı ilə əlaqəli məlumatların toplanması və mübadiləsinin təkmilləşdirilməsinə **töhfə verilməsi**;

İnsan alveri və müvafiq mövzular üzrə ictimaiyyətin maarifləndirilməsi məqsədilə kampaniyaların **təşkili**. Belə redaksiya təşəbbüsləri həmçinin jurnalistikaya nəzərən ictimai inamı gücləndirə bilər. Medianın bu məsələyə bağlılığının dayanıqlı jurnalistikanı ərsəyə gətirməsinə nümunə olaraq CNN-nin Azadlıq Layihəsi və Aljazeeranin Köləlik layihələrini misal çəkmək olar: “21-ci əsrin bəlası” kampaniyası.



Flickr CC-nin razılığı ilə istifadə edilmişdir. Peter Haden (2008)

# 04.
# Qabaqcıl təcrübə

**Etik xəbər otaqları** keyfiyyətli jurnalistikanın əsasıdır. İnsan alverinin işıqlandırılması etik reportajın əsas prinsipləri ilə bağlı bilik və prinsiplərə sadiqlik tələb edir. Bunlar aşağıdakılardan ibarətdir:

1. **Dəqiqlik və dəlillərə əsaslanan reporaj**. Qərəzli yalanlar, saxta xəbərlər və yoxlanılmayan məlumatlara yol verilməməlidir.

2. **Müstəqillik.** Vicdanlı davranın. Anti-miqrasiya təbliğatına uymayın və siyasi və ya digər imtiyazlı dairələrin səsi olmayın.

3. **Qərəzsizlik.** Baş verən hadisənin bütün tərəflərini söyləməyi unutmayın. Xüsusilə də, insan alveri qurbanları və insan alveri travmasından xilas olunanların səsini ucaldın və təyinat ölkələrində məskunlaşan şəxslərin qanuni maraqlarını ifadə edin.

4. **Humanizm.** Jurnalistika zərər yetirməməlidir. Reportajlarda mərhəmət nümayiş etdirin. İnsan alverinin qurbanı olmuş şəxsin keçirdiyi fiziki, emosional və böhran vəziyyətinin həllini göstərin.

5. **Cavabdehlik və şəffaflıq.** İşinizə qarşı məsuliyyətli olun. Səhvlərinizi düzəldin, kimliyinizi açıqlayın və metodlarınızı gizlətməyin.

Jurnalistlər işlərinin bütün aspektlərində yuxarıda qeyd edilən əsas dəyərləri tətbiq etməlidirlər. Yadda saxlayın ki, jurnalistlər insan alveri kimi travmaların qurbanı olmuş şəxslərə hörmət etməyə borcludurlar. Məsələn, ABŞ-ın Milli Mətbuat Fotoqraflar Assosiasiyasının Əxlaq Kodeksi bəyan edir ki:

*“Bütün fərdlərə hörmət və ləyaqətlə yanaşın. Həssas şəxslərə, cinayət və facie qurbanlarına qarşı şəfqətli olun. Kədərli anlarda o halda müdaxilə edə bilərsiniz ki, ictimaiyyətin belə halları görmək istəyi əsaslı olsun.*[8]

8 Jurnalistlər üçün məcəllə və standartların tam siyahısını http://accountablejournalism.org-dan əldə etmək olar

# Giriş Suallari.

Bu suallar jurnalistlərə insan alveri hallarının müəyyənləşdirməsinə yardım edir. Aşağıdakılardan hər hansı birinə cavab «bəli» olarsa, ehtiyatlı davranın və bu təlimatlarda göstərilən mənbələrdən istifadə edərək məsləhət alın.

1. İşlədiyim şəxs zorakılıq, psixoloji təzyiq və ya digər idarə formalarının nəticəsi olaraq məcburən bu vəziyyətə salınmışdır?

2. Zorakılıq və ya hədə-qorxunun qurbanı olmuşdurmu?

3. Pul ödəməyə məcbur edilibmi?

4. Daha güclü statusa malik şəxs tərəfindən həmin şəxslər üzərində zor tətbiq edilibmi?

Ümumi anlayışlarla ifadə etsək, jurnalistlər və redaktorlar yanlış məlumat uçurumları, sosial şəbəkələrdən daxil olan saxta xəbərlər və şəxsi maraqların təbliğindən çəkinməlidirlər. Aşağıdakı hallarda düzgün davranmış olarlar:

**Faktlardan uzaqlaşmasalar, Statistik rəqəmlərə skeptik yanaşsalar.** Rəqəmlər məqalələrə zəmin yaradır, lakin aldadıcı ola bilər. İnsan alveri, müasir köləlik və məcburi əməyin xarakteri gizli olduğundan, bu cinayətlərə cəlb olunanların dəqiq sayını bilmək olmur. Məlumatların saxtalaşdırılma təhlükəsi daima mövcuddur. Jurnalistlər rəqəmlərlə bağlı iddiaları yoxlamalı və araşdırmalıdırlar; statistik rəqəmləri dəlillər əsasında süzgəcdən keçirməli və zəruri olduğu halda təsdiqini tapmayan məlumatlara görə əhaliyə xəbərdarlıq verməlidirlər.

Yadda saxlayın ki, ən etibarlı rəqəmləri Beynəlxalq Əmək Təşkilatı və bu təlimatlarda qeyd edilən digər mötəbər beynəlxalq qurumlardan əldə etmək olar, hətta həmin rəqəmlər belə təqribi xarakter daşıyır və ərsəyə gəlmə şəkli jurnalistlər tərəfindən əsaslı surətdə tədqiq edilməlidir.

Yanlış düşüncələrə qarşı **müqavimət göstərin**. Seks və sensasiyaya medianın fokuslanması nəticəsində yaranan geniş yayılmış səhv anlayış əksər vaxt insan alverinin cinsi istismarla əlaqəli olması, daha çox qızlar və qadınların bu problemə məruz qalması ilə bağlıdır. Əslində, insan alveri daha çox cinsi istismar deyil, məcburi əmək məqsədilə törədilir. Cinsi istismar məqsədilə insan alverinə (eləcə də oğlan və kişilərin) qarşı mübarizə əhəmiyyətlidir, lakin bu əməyin istismarı üçün törədilən insan alveri hesabına həyata keçirilməməlidir.

**Müsbət olun və həll yollarına köklənin.** Diqqətin insan alveri qurbanlarının dayanıqlığı və bərpasına yönəldilməsi vacibdir. Xilas olan insanlar çox maraqlı hadisələr barədə danışırlar. Müsbətə köklənmiş və tarazlı baxış auditoriyada söylənilənlərə inam yaradır. Fon işinizdə siyasət məsələlərini və bunların təkmilləşdirilməsi yollarını araşdırın.

**Pulu izləyin.** İnsan alveri sənayesi və müasir köləlik hər kəs üçün ucuz məhsul-

ların istehsalına imkan yaradan məcburi əməyi təmin edir. Bu, qlobal sənayedir və ölkə daxilində və xaricində təhqiqatların aparılmasını tələb edir.

Təhqiqat işlərindən bəzi mükəmməl nümunələr 2017-ci ildə yayımlanmış BBC-nin *Satış üçün İnsanlar* sənədli filmi və Almaniyada yayımlanan ARD kanalının bənzər mövzülu proqramıdır.

Media, həmçinin aşağı dərəcəli xidmətlərin (maşınların yuyulması, manikür-pedikür salonları, tikinti sahələri) ucuz işçi qüvvəsi tərəfindən göstərildiyini araşdıra bilər. Bu şəxslər potensial insan alveri qurbanlarıdırlarmı? Jurnalistlər pulu izləyə və köləliyin izləri görünən ilkin materialları axtara bilərlər. Onlar auditoriyaya bizim insan alveri problemindən uzaq olmadığımızı göstərə bilərlər. Bu insanların diqqətini çəkəcək.

**Ümid verilməsi.** İctimaiyyətin insan alveri və ya məcburi əməyin qurbanı olmuş şəxsləri gücsüz fərd olaraq daima zərərə məruz qalan kimi görməsi asandır. Bu heç də hər zaman doğru olmur. İnsanın dayanıqlığını qabardan və müasir köləlik və məcburi əmək faciəsini yaşayan fərdlərin sonradan öz həyatlarını yenidən necə qurduğunu xəbər verən jurnalistin söylədikləri fərqlidir.

# Müsahibə Təlimatları

İnsan alveri və köləlik haqqında məlumat verilməsinə dəyər, lakin bunlar gizli cinayət olduğundan jurnalist təhqiqatının dəstəklənməsi hədsiz sayda resurs tələb edir. Zərər çəkmiş şəxslərə çıxışın əldə olunması bəzən çətin olur və hadisələrin ön plana çəkilməsində məhz onların səsi böyük rol oynayır.

***Yadda saxlayın:*** *Xəbər mediası böyük gücə malikdir. İnsanlar jurnalistlərin onlara yaxınlaşmasından qürurlanırlar, lakin ictimaiyyətin qarşına çıxmağın özləri və digərləri üçün hansı risklər doğurduğunu tamamən başa düşmürlər. Bu xüsusilə də, insan alveri faciəsini yaşayan şəxslər, eləcə də humanitar fəlakətlər, müharibə və ya digər travmatik hadisələrin iştirakçısı olanlara aiddir.*

Jurnalistlər mənbələri ilə, xüsusilə də insan alveri qurbanları və zərər çəkmiş şəxslərlə münasibətdə mümkün qədər şəffaflığı qorumalı və aşağıdakılara riayət etməlidirlər:

- Şəxsin azyaşlı olub-olmadığını müəyyənləşdirin (18 yaşından aşağı və ya həddi-buluğa çatmayan şəxslər).
- Müsahiblərin həssaslıq dərəcəsini qiymətləndirin (xüsusilə də, travma və zorakılığın qurbanı olmuş gənclər)
- Məxfiliyə riayət edin. Hər kəsin, xüsusilə də uşaqların özəl həyatının qorunması və hörmətlə yanaşılma hüququ var.

- Uşaqlarla onlara cavabdeh şəxs və ya qəyyumun iştirakı ilə müsahibə aparılmasını təmin edin;
- Onlara hesabatvermə prosesi və ya yazılanların əhəmiyyətini izah edin;
- İstisna hallar xaric olmaqla, insan alveri məsələləri barədə reportaj hazırlayarkən hiylə və ya yalandan istifadə etməyin.

---

***Yadda saxlayın:*** *Qurbanın valideyni və ya qəyyumu olmadığı, və ya oxuyub-yazmağı bacarmadığı hallarda, xilas olan şəxsi təmsil edən təşkilat qeyri-etik və etibarsız olarsa, jurnalist öz vicdanına və etik mühakiməsinə arxalanmalıdır. Hər şeydən əvvəl bu humanizm etikasının göstərilmə anıdır.*

---

Etik jurnalistin insan alverindən canını qurtarmış şəxsin müsahibəsi zamanı soruşacağı suallar üçün əlavə yoxlama vərəqəsi:

- Onlara aydındırmı nə üçün onlardan müsahibə götürürəm və məqaləmdə məqsəd nədir? Niyyətlərimi tam açıqlamışammı?
- Həssas vəziyyətdə olan gənc və ya istənilən şəxsin müdafiəsinə yetərincə diqqət ayırmışammı? Həmin şəxslərin təqdim etdikləri məlumatların potensial nəticələri ilə bağlı məlumatlılığını təmin etmişəmmi?
- Müsahibənin şərtlərini tam başa düşdüklərini, “mətbuat üçün deyil”, “fon və mənbələrə istinad göstərilmədən dərc üçün” və ya digər ifadələri tam başa düşdüklərinə əminəmmi?
- Müsahibəyə razılıq göstərilmədən öncə müsahib şərtlər barədə suallar verərsə, nə qədər məlumat verə bilərəm? Müsahibin intervyu ilə əlaqəli yaranan xərclərini ödəməliyəmmi? Ödənilməli hansı qanuni xərclər yarana bilər?
- Reportajın nəticəsi olaraq problemlər yaranarsa, hüquqi nümayəndə kimi digər şəxslərə əlavə dəstək göstərməyə razılaşımmı?
- Şəkil çəkməzdən və ya video çəkiliş aparandan öncə razılıq almışammı?
- Travmatik təcrübənin yüngülləşdirilməsindən çəkinmişəmmi, uyğun suallar vermişəmmi və müsahibə verən şəxsə sərbəst danışmaq imkanı yaratmışammı?
- Müsahibin yaşadıqlarının müsbət tərəflərinə fokuslanmışanmı və onun hesabatım dərc olunmazdan əvvəl faktla bağlı səhvləri yoxlamaq hüququnun olduğunu aydınlaşdırmışammı?
- Bütün müvafiq suallar soruşulub və cavablandırılıbmı? Ehtiyatlı və həssas davranış sərgiləmişəmmi? Müsahibə verən şəxsin maraqlarını müdafiə etmişəmmi?

**Anonimlik** hüququ yalnız ona ehtiyacı olan şəxslərə verilməli və bir qayda olaraq hər kəsə təmin olunmamalıdır. İnsan alverinə gəldikdə, çox həssas şəxslərin müdafiəsi jurnalistlərdən tələb edir ki, zorakılıq qurbanları və şəxsiyyətinin açıqlanması təhlükə yarada biləcək şəxslərin anonimliyi onların bunu tələb etmələrindən asılı olmayaraq nəzərə alınsın.

### Jurnalistlər humanizm adına qaydaları poza bilərlərmi?

*Bəzən jurnalistlər həmsöhbətlərilə birmənalı olmayan münasibətlər yarada bilərlər ki, bu işin etik əsasını sarsıda bilər. 2014-cü ildə isveçli radio və telejurnalist Fredrik Önnevall miqrasiya böhranının işıqlandırılması tapşırığını yerinə yetirərkən 15 yaşlı suriyalı qaçqınla dostlaşmışdır. Həmin jurnalist öz heyəti ilə birgə qərar vermişlər ki, oğlanın İsveçə köçməsinə kömək etsinlər. Oğlanın yol hekayəsi əsasında hazırlanmış film İsveçin ictimai televiziyasında yayımlanmış və alqışlanmışdır, buna baxmayaraq jurnalist sonradan təqib olunaraq insan qaçaqmalçılığına görə mühakimə olunmuşdur. Onun bu hərəkəti jurnalistika aləmində jurnalistlərin reportajdakı rolu barədə qızğın müzakirələrə səbəb olmuş– onlar hadisələrin iştirakçısına çevrilməlidir və ya sadəcə müşahidəçi olaraq qalmalıdırlar?*




photo courtesy of Flickr CC: Yan Arief (2007)

# Foto Jurnalistika Üçün Təlimatlar

Hər bir jurnalist məcburi əmək və ya kölə vəziyyətində olan şəxslərlə müsahibə aparmaq, şəkillərini və videolarını çəkmək istəyər. Miqrant ölümlərinin faciəsi, xüsusilə də insan alveri şəraitində aşkarlanmış şəxslərin yaşadıqları təsiredici şəkillər mənbəyi olsa da, böyük bir qismi ziddiyyətlə doludur.

Yadda saxlayın ki, xəbər işçilərinin həssas, qorxmuş və istismara məruz qalmış şəxslərin olduğu yerə gətirilməsi travmatik təcrübə ola bilər. Jurnalistlər, insan alveri qurbanlarını lentə alarkən təhlükəsiz və cəsarətverici mühitin yaradılması üçün əllərindən gələni etməlidirlər.

Hadisənin nəqli zamanı təsirli şəkillərdən istifadə jurnalistikanı gücləndirir, lakin media stereotipləri möhkəmləndirən səthi təsəvvürlərə yol verməməlidir.

Sensasiya, müdaxilə və lazımsız marağa yol verən şəkillər və videoların istifadəsindən çəkinin.

İctimai yerlərdə bu zəruri olmasa da, fərdləri lentə alanandan və şəkillərini çəkməzdən əvvəl bütün hallarda onların icazəsini alın. Mümkündürsə, əvvəlcədən yazılı icazə alın.

Seksual şəkillər və stereotipləri əks etdirən şəkillərdən istifadə etməkdən çəkinin -zəncirlənmiş qız və ya üzərində ştrix kid olan şəxs, dəmir barmaqlar arasında və ya miskin fahişəxanada uşaq. Belə şəkillər insan alveri haqqında stereotipləri möhkəmləndirir. Məsələn, insan alverinin qurbanlarının əksəriyyəti xilas olmuş və ya sağalmaq prosesində olanlardır. Əksəriyyəti amansızcasına istismara məcbur edilmiş, emosional cəhətdən manipulyasiya olunmuş və asılı vəziyyətə salınmışlar.

Açıq zorakılıq səhnələrini təsvir edən şəkillərin istifadəsindən yayının. Zorakılığın ifrat olduğu şəkillər nadir hallarda ictimai maraq üçün nümayiş etdirilə bilər. Ümumilikdə, redaktorlar və rejissorlar fiziki zədənin olduğu şəkillərdən istifadənin hansı dərəcəyədək məqbul olduğunu nəzərə almalıdırlar. Sərhədlər harada çəkilməlidir? Hadisənin təsviri üçün insan alveri və köləlik qurbanlarının çapıq, göyərti və sınmış oynaqlarının göstərilməsinə haqq qazandırmaq olarmı?

Yaxşı jurnalistika insan alverinin qurbanları və xilas olanların vəziyyətini sadələşdirməklə daha çox istismara yol açmır, qüvvətverici şəkil və ismarışlar vasitəsilə insan alveri haqqında məlumatlılığı artırır.

**Hadisənin təsviri: Pul….**




*İnsan alveri qlobal olaraq $9 milyarddan $31.6 milyardadək məbləğ qazandırır.*

**Və ya seks……**




Üzü göstərilməyən üzərində ştrix kod olan şəxsin şəklinin insan alverindən xilas olanların situasiyasına qarşı insanlarda humanist münasibət yaratması mümkündürmü?

## Seks medianı canlandırır

*Məcburi əmək, insan alveri və müasir köləlik əsas problemlərdir, lakin seks mövzusu da, çox zaman media başlıqlarını ələ keçirir. Joseph Rowntree Fondunun 2013-cü il tarixli hesabatına əsasən Britaniya mediasında 3000-dən çox reportajın ətraflı təhlilinin nəticəsi olaraq məlum olmuşdur ki, seks kəliməsinin işlənildiyi insan alveri haqqında yazılar mediada məcburi əmək və ya müasir köləlik haqqında məqalələrdən daha çox yer almışdır. Bu reportaj məsələnin daha geniş miqyasda müzakirəsinə yol aça bilər, lakin aparılan araşdırma bir daha sübut edir ki, müasir köləlik kimi köklü problemin işıqlandırılması ağlasığmaz dərəcədə aşağı səviyyədədir.*

## Miqrasiya: siyasət media işıqlandırmasını necə təhrif edir

*İmmiqrasiya haqqında söylənilən mənfi fikirlər insan alveri kimi iki addımlığımızda olan problemi işıqlandıran yazılardan daha çox medianın diqqətini çəkir. Etik Jurnalistika Şəbəkəsi və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin 2015*[9] *və 2016-cı*[10] *illərdə hazırladığı ölkə üzrə hesabatlar media işıqlandırılmasına lüzumsuz siyasi təsirlərin saxta və ya təhrif olunmuş məlumatlara əsaslandığını, məcburi əmək, uşaq əməyi və insan alveri kimi əsaslı problemlərin ikinci plana keçirildiyini diqqətə çatdırır. Media və jurnalistikada çağırış immiqrasiyanın həqiqi problemlərinə lazımınca yerin ayrılması və bununla bərabər bütün açıqlığı ilə pozulan insan hüquqlarının ifşa edilməsi və məlumatın verilməsidir.*

9 See http://ethicaljournalismnetwork.org/resources/publications/moving-stories

10 See http://ethicaljournalismnetwork.org/resources/publications/media-mediterranean-migration

# 05.
# Linklər və əlaqə məlumatları:

## İXTISARLAR:

| | |
|---|---|
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı |
| **ICAT** | İnsan Alverinə qarşı Qurumlararası Koordinasiya Qrupu |
| **MMD** | Miqrasiya və Yerdəyişmə haqqında Dialoq (Afrika) |
| **ATƏT** | Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| **MSHBM** | Miqrasiya Siyasəti Hazırlanması üzrə Beynəlxalq Mərkəz |
| **BMTQAK** | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| **BMqT** | Beynəlxalq Miqrasiya Təşkilatı |
| **İHAK** | İnsan Hüquqları üzrə Ali Komissarlıq |
| **IDMC** | Beynəlxalq Yerdəyişmə üzrə Monitorinq Mərkəzi |
| **ƏMHMK** | Əməkçi miqrantların hüquqlarının müdafiəsi haqqında Konvensiya |
| **QMQ** | Qlobal Miqrasiya Qrupu |
| **GCIM** | Beynəlxalq Miqrasiya üzrə Qlobal Komissiya |
| **CERD** | Birləşmiş Millətlər Təşkilatının İrqi Ayrıseçkiliyin Ləğv edilməsi üzrə Komitəsi |
| **PICUM** | Sənədsiz Miqrantlar üzrə Beynəlxalq Əməkdaşlıq Platforması |

Jurnalistlər və medianın məlumatlı olması gərəkən beynəlxalq agentliklərin bəzi əsas siyasi təşəbbüsləri və resursları:

| | |
|---|---|
| **Rabat Prosesi** | Miqrasiya və İnkişaf üzrə Avropa-Afrika Dialoqu |
| **Xartum Prosesi** | Afrika Miqrasiya Marşrutu Təşəbbüsünün Aİ tərəfi |
| | Miqrasiya və Yerdəyişmə Dialoqunda Afrika Kontinental |
| **Budapeşt Prosesi** | qanuni miqrasiya ilə bağlı 50 ölkə arasında konsultativ proses |
| **Praqa Prosesi** | Avropa İttifaqı, Şengen ərazisi, Şərq Tərəfdaşlığı ölkələri, Qərbi Balkanlar, Mərkəzi Asiya, Rusiya və Türkiyə arasında hədəfli miqrasiya dialoqu |
| **Aralıq Dənizi üzrə Tranzit Miqrasiya Dialoqu** | Miqrasiya və əlaqəli məsələlərə cavabdeh dövlət rəsmiləri arasında konsultativ dialoq |
| **Miqrasiya üzrə Qlobal Kompakt** | Miqrasiyaya hərtərəfli yanaşmaya dair Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü. |
| **İnsan Alverinə qarşı Mübarizədə Qlobal Fəaliyyət Planı** | Birləşmiş Millətlər Təşkilatının insan alveri üzrə strategiyası |
| **Beynəlxalq Əmək Təşkilatı** | Məcburi əmək və uşaq əməyi sahəsində Birləşmiş Millətlərin əsas Təşkilatı |
| **İnsan Alverinə qarşı Qurumlararası Koordinasiya Qrupu** | İnsan alverinə qarşı mübarizədə BMT qurumlarının birgə əməkdaşlığı |
| **İnsan Alverinə qarşı Alyans** | Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən yaradılmış geniş beynəlxalq forum |
| **Alyans 8.7** | Uşaq əməyinə qarşı mübarizə üzrə beynəlxalq alyans |
| **Miqrasiya Xəbərləri Redaksiyası** | Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən jurnalistlər üçün yaradılmışdır |
| **Miqrasiya haqqında yazılar** | İnsan Alverinə qarşı Mübarizəyə dair mövzuları əhatə edir |

| | |
|---|---|
| **Birləşmiş Millətlər Təşkilatının Ali Komissarlığının təlimatları** | Bu sahədə, xüsusilə də insan alveri mövzüsunda əsaslı və siyasət yönümlü tədqiqatlar aparan Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz tərəfindən görülən tədbirlərin icmalı. |

# Media linkləri:

https://www.freetheslaves.net/about-slavery/faqs-glossary/
Jurnalistlər üçün mükəmməl iş görən beynəlxalq təşkilatlardan biri.

https://gijn.org/human-trafficking-resources-best-practices-in-reporting/:
Təhqiqatçı Jurnalistlərin Qlobal Şəbəkəsinin jurnalistlər və media təşkilatları üçün öncül təcrübə nümunələri və məsləhət ilə zəngin mükəmməl resurs.

# Nümunəvi Reportajlardan bir neçəsi:

http://programm.ard.de/TV/Themenschwerpunkte/Politik/Aktuelle-Reportagen/Start-seite/?sendung=28487337027833
Almaniyada müasir köləlik, məcburi əmək, ev qulluğunda istismar və cinsi istismar kimi mövzuları əhatə edən ARD kalanının sənədli filmi. Jurnalistlər insan alverindən xilas olan-lar, sosial işçilər, QHT-lər və polislə dialoqda Almaniyada müasir köləliyinin dayandırılması yollarını axtarırlar.

http://www.zeit.de/wirtschaft/2016-05/sklaverei-ausbeutung-global-slavery-index-kom-plexitaet/komplettansicht:
2016-cı il 31 may tarixli müfəssəl məqalə qaçqın böhranının yeni çağırışlara yol açmasından bəhs edir və istehlak mallarına çəkilən xərclərin aşağı qalması üçün məcburi əməyin qlobal biznes strategiyasının bir hissəsinə çevrilməsinə diqqət çəkir.

http://youtu.be/APN4Q62uatk:
Fransa televiziyasının maliyyələşdirdiyi müstəqil kinematoqraf tərəfindən hazırlanan və 2016-cı ildə 5 kanalında efirə getmiş Fransada müasir köləlik haqqında güclü təsirə malik sənədli film.

https://www.theguardian.com/membership/audio/2016/may/23/patrick-kingsley-on-eu-ropes-refugee-crisis-guardian-live-event
Guardian jurnalı. Britianiyanın aparıcı jurnalistlərindən biri Patrick Kingsley qaçqın böhranı ilə bağlı reportaj hazırlamağın çətinliyindən bəhs edir.

https://www.theguardian.com/world/2015/apr/24/libyas-people-smugglers-how-will-they-catch-us-theyll-soon-move-on
Guardian tərəfindən aparılan araşdırma Liviyanın balıqçılıq sənayesinə mənfi təsir göstərən, qayıqları ələ keçirərək miqrantları və qaçqınları Aralıq dənizindən keçirən insan alverçilərindən bəhs edir.

# Təlimatlar toplusu:

http://www.who.int/mip/2003/other_documents/en/Ethical_Safety-GWH.pdf
Ümumdünya Səhiyyə Təşkilatının 2003-cü il tarixli İnsan Alverindən zərər çəkmiş Qadınlarla Müsahibənin Etik və Təhlükəsiz keçirilməsi üzrə Tövsiyələri. Bu tövsiyələri əsaslandıran fon materiallardan savayı ÜST-in sənədində «İnsan alverindən zərər çəkmiş qadınlarla müsahibənin etik və təhlükəsiz keçirilməsinin on başlıca prinsipi” əks olunub.

https://www.unicef.org/media/media_tools_guidelines.html
UNİCEF-in uşaqlar haqqında etik reportajın prinsip və təlimatları. Bu sənədin məqsədi «uşaqlarla bağlı xəbər yayımlayarkən yaşlarına uyğun və həssas davranışın göstərilməsində jurnalistlərə yardımçı olmaqdır”. Təlimatların məqsədi etik jurnalistlərin maraqlarının təmin olunmasında onlara yardımçı olmaq: uşaq hüquqlarına güzəşt etmədən ictimai maraqlara xidmət edilməsidir.

https://www.unodc.org/documents/human-trafficking/2008/BP012TheRoleoftheMedia.pdf
Birləşmiş Millətlər Təşkilatının İnsan Alverinə qarşı Mübarizə üzrə Qlobal Təşəbbüsü jurnalistlərin maarifləndirilməsi və reportajın keyfiyyətinin təkmilləşdirilməsini hədəfləyən “İmiclərin formalaşdırılmasında medianın rolu” (2008) adlı araşdırma aparmışdır.

http://www.astra.org.rs/en/pdf/novinari08ENG.pdf
Jurnalistlər üçün İnsan Alveri haqqında Vəsait (2008).
Serbiyalı QHT (Astra) tərəfindən insan alveri probleminin işıqlandırılmasında jurnalistlər üçün yardımçı təlim vəsaiti; bənzər çətinliklərlə qarşılaşan digər ölkələr üçün də faydalıdır.

http://mirpal.org/files/files/Torgovlya_lyudmi.pdf
Rusiya Jurnalistləri Birliyi (QHT) və Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsi 2013-cü ildə ATƏT-in dəstəyi ilə media fakültəsinin bakalavr və magistratura tələbələri üçün rus dilində “СМИ против ТЛ” adlı vəsait hazırlamışdır.

http://www.ethicaljournalismnetwork.org
Jurnalistlər üçün Miqrasiya Xəbərlərinin verilməsi üzrə Təlimatlar, 2016 və 2017-cı illərdə 30 Aralıq dənizi regionu ölkələrini əhatə edən mediada miqrasiyanın işıqlandırılmasını əks etdirən iki beynəlxalq hesabat dərc olundu.

Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz (MSHBM)
2017